XOCALI SOYQIRIMI XX ƏSRİN FACİƏSİDİR!

07 (1313)

22-28 fevral 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymәti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "TÜRKİYƏ İLƏ AZƏRBAYCAN ARASINDAKI MÜNASİBƏTLƏRİN BƏNZƏRİ YOXDUR VƏ BU ƏLAQƏLƏR HƏR GÜN DAHA DA GÜCLƏNİR"



***Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə geniş tərkibdə görüşdə deyib. O, bildirib:***

- Bu gün təkbətək görüş əsnasında bir çox məsələləri müzakirə etdik, bu il üçün və gələcək illər üçün "Yol xəritəsi"ni bir daha gözdən keçirdik. Müdafiə sənayesi sahəsində çox gözəl irəliləyişlər var və prezident seçkilərindən iki gün sonra mənim iştirak etdiyim ilk tədbir "Bayraktar Akıncı" PUA-sının təqdimatı idi. Artıq PUA-lar da Azərbaycan səmasında uçur və bu, bizim üçün həm əlavə imkanlar yaradır, eyni zamanda, texnoloji inkişafımız üçün önəmli şərtdir. "Baykar Holding"in Azərbaycanda təlim, tədris və təmir mərkəzinin yaradılması üçün işlər sürətlə gedir. Ümid edirəm ki, bu il və ya gələn il bu gözəl mərkəz açılacaqdır. Eyni zamanda, Türkiyənin bir neçə şirkəti ilə ortaq istehsal üzrə danışıqların son mərhələsindəyik.

Görüşdə Şuşa Bəyannaməsinin ölkələrimiz arasındakı münasibətləri müttəfiqlik səviyyəsinə qaldırdığı xüsusilə qeyd olunub.

İkitərəfli ticarət dövriyyəsinin 7,5 milyard dollara çatdığı, müdafiə sənayesi, hərbi, energetika, təhsil və digər sahələrdə əməkdaşlığın, Orta Dəhliz məsələsində Azərbaycan ilə Türkiyənin işbirliyinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin ötürücülük qabiliyyətinin daha da artırılmasının, həmçinin Naxçıvanda birgə layihələr və sonuncu səfər zamanı imzalanmış sənədlərin, o cümlədən Naxçıvanın qaz təchizatı istiqamətində layihələrin, Qars-Naxçıvan dəmir yolunun tikilməsinin mühüm əhəmiyyəti vurğulanıb.

## "ƏLDƏ EDİLMİŞ BÜTÜN NAİLİYYƏTLƏRİN MƏNBƏYİ AZƏRBAYCAN XALQIDIR"



"2003-cü ildə verdiyim bütün vədlər yerinə yetirildi". Bunu Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində deyib.

Dövlətimizin başçısı, həmçinin bildirib: ***"Əldə edilmiş bütün nailiyyətlərin mənbəyi Azərbaycan xalqıdır, onun mənə göstərdiyi inam və onun vahid amal ətrafında birləşmə bacarığıdır. Biz doğrudan da bütün dünyaya sübut etmişik ki, böyük xalqıq".***

**Prezident İlham Əliyev deyib:** ***"Əziz xalqımı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm".***

Dövlətimizin başçısı prezident seçkilərində ona yenidən böyük etimad və dəstək göstərən Azərbaycan xalqına dərin təşəkkürünü ifadə edib.

## "ERMƏNİSTAN SANKİ İKİNCİ QARABAĞ MÜHARİBƏSİNİN NƏTİCƏLƏRİNİ UNUTMUŞDU"

"Müharibədən keçən dövr ərzində biz öz prinsipial mövqeyimizi bütün məsələlərdə göstərmişdik. Bildirilmişdi ki, Ermənistanın üzərinə götürdükləri bütün öhdəliklər yerinə yetirilməlidir". Bu sözləri Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində söyləyib. Ancaq vaxt keçdikcə yenidən bizə qarşı ərazi iddialarının irəli sürüldüyünü, onların yenidən çirkin əməllərindən əl çəkmək istəmədiklərini gördüyümüzü vurğulayan dövlətimizin başçısı bildirib: ***"Ermənistan sanki İkinci Qarabağ müharibəsinin nəticələrini unutmuşdu. Bəlkə kimsə onlara müəyyən məsləhətlər də verirdi ki, bu öhdəliklər yerinə yetirilməsin".***

## "ANTİTERROR TƏDBİRLƏRİ GÖSTƏRDİ Kİ, TÜRKİYƏNİN ORDU MODELİ AZƏRBAYCANDA ARTIQ TAM OTURUŞUB"

"İşbirliyimizin önəmli istiqaməti hərbi sahədə işbirliyidir. Bizim ordularımız bir yumruq anlamına gəlir".

Bu sözləri Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında deyib.

Dövlətimizin başçısı qeyd edib: ***"İkinci Qarabağ savaşı və 5 ay əvvəl keçirdiyimiz antiterror tədbirləri bir daha onu göstərdi ki, Türkiyənin ordu modeli Azərbaycanda artıq tam oturuşub".***

## "MÜDAFİƏ SƏNAYESİ SAHƏSİNDƏ TÜRKİYƏ İLƏ ORTAQ İSTEHSALLA BAĞLI KONKRET PLANLARIMIZ VAR"

"Bu gün təbii ki, müdafiə sənayesi sahəsində yeni imkanlar açılıb. Bu barədə də geniş müzakirələr aparıldı, ortaq istehsalla bağlı konkret planlarımız var". Bu barədə Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında bildirib. Dövlətimizin başçısı deyib ki, bu planlar gerçəkləşdikdə insanlar da, ictimaiyyət də bundan xəbərdar olacaq.

## "AZƏRBAYCAN ƏRAZİSİNDƏ SEPARATÇI QÜVVƏLƏRƏ YER YOXDUR"

"Qarabağda keçirilmiş antiterror əməliyyatı ölkəmizin suverenliyini tam təsdiqlədi".

Bunu Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında bildirib.

Dövlətimizin başçısı xatırladıb ki, artıq Azərbaycan ərazisində separatçı qüvvələrə yer yoxdur və bundan sonra heç vaxt olmayacaq.

## "TÜRKİYƏ BU GÜN DÜNYA ÇAPINDA SÖZ SAHİBİDİR"

"Türkiyə bu gün dünya çapında söz sahibidir. Təkcə bölgəmizdə deyil, dünya çapında Türkiyənin mövqeyindən bir çox məsələlər asılıdır".

Bu fikirləri Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə mətbuata bəyanatında səsləndirib.

***"Türkiyə bölgəmizdə barışın, istiqrarın, sülhün və işbirliyinin qarantıdır"***, - deyə dövlətimizin başçısı əlavə edib.

## "ZİRVƏ TOPLANTISININ ŞUŞADA KEÇİRİLƏCƏYİNDƏN XÜSUSİ MƏMNUNLUQ DUYURAM"

Türk Dövlətləri Təşkilatının növbədənkənar Zirvə toplantısı iyul ayında Şuşada keçiriləcək.

Bu barədə fevralın 19-da Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında bildirib.

Türkiyə Prezidenti deyib: ***"Türk Dövlətləri Təşkilatındakı birliyimizin daha da güclənməsi üçün fəaliyyətimizi davam etdiririk. Təşkilatımızın növbədənkənar Zirvə toplantısının iyul ayında Türk dünyasının mədəniyyət paytaxtlarından olan Şuşada keçirilməsindən məmnunluq hissi keçirdiyimi xüsusi qeyd etmək istəyirəm".***

## MÜNXEN GÖRÜŞLƏRİ

Fevralın 16-da 60-cı Münxen Təhlükəsizlik Konfransında iştirak etmək üçün Almaniyanın Münxen şəhərində səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşı tərəfin müraciətinə əsasən İtaliyanın "Leonardo" şirkətinin baş həmdirektoru Lorenzo Mariani, ATƏT-in fəaliyyətdə olan sədri, Malta Respublikasının xarici, Avropa işləri və ticarət naziri İan Borq, Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) prezidenti Odil Reno-Basso, BŞ Prezidentinin qlobal infrastruktur və enerji təhlükəsizliyi üzrə xüsusi koordinatoru Amos Hoxşteyn, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Türkiyə Respublikasının xarici işlər naziri Hakan Fidan, Kansler Olaf Şolts və və Ermənistanın Baş naziri Nikol Paşinyan, ABŞ-ın Dövlət katibi Antoni Blinken, Ukrayna Prezidenti Volodimir Zelenski, ATƏT-in Baş katibi, Münxen Təhlükəsizlik Konfransı Fondu Şurasının vitse-prezidenti xanım Helqa-Mariya Şmid və digərləri ilə görüşüb.

* * * * *



Fevralın 17-də Münxendə Almaniya Federativ Respublikasının Kansleri Olaf Şoltsun təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts ilə görüşü olub.

Görüşdə ikitərəfli əlaqələrlə bağlı fikir mübadiləsi aparılıb.

Almaniya tərəfi Ermənistanla Azərbaycan arasında sülh gündəliyinə öz dəstəyini göstərməyə və xoşməramlı əsasda Almaniyada bu istiqamətdə müvafiq görüşlərin keçirilməsinə dəstək verməyə hazır olduğunu bildirib. Olaf Şolts qeyd edib ki, COP29 əsnasında Ermənistanla Azərbaycan arasında əldə olunan kompromislər, COP29-un Azərbaycanda keçirilməsi sülh gündəliyinin də irəli aparılması üçün əlverişli imkanlar və şərait yaradır.

Sonra Almaniya Kanslerinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Kansler Olaf Şolts və Ermənistan Respublikasının Baş naziri Nikol Paşinyan ilə birgə görüşü olub.

Görüşdə Almaniya Kansleri açılış nitqi ilə çıxış edib. O, Almaniyanın Ermənistanla Azərbaycan arasında sülh gündəliyini, eyni zamanda, Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel tərəfindən aparılan missiyanı dəstəklədiyini vurğulayıb.

# "İndi yeni dövr başlayır, bu dövrün böyük nailiyyətləri olacaq"

"İndi yeni dövr başlayır. Biz bu dövrə alnımız açıq, üzümüz ağ, başımız dik daxil oluruq. Bu dövrün böyük nailiyyətləri olacaq".



Bu fikirləri Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində səsləndirib.

İndiyədək qarşıya qoyulan bütün vəzifələrin icra edildiyini xatırladan dövlətimizin başçısı qeyd edib: *"Azərbaycan cəmiyyətində hökm sürən çox müsbət ab-hava bizi daha da gücləndirir. Güclü Azərbaycan bizim həmişə hədəfimiz olub"*.

# "Xankəndidə qutuya atdığım bülleten erməni separatçılarının tabutuna vurulan son mismar idi"

"Xankəndidə verdiyim səs, o qutuya atdığım bülleten sadəcə olaraq bülleten deyildi. Bu, erməni separatçılarının tabutuna vurulan son mismar idi".

Bu sözləri Prezident İlham Əliyev andiçmə mərasimindəki nitqində söyləyib.

O, deyib: *"Ermənistanın nə qədər havadarları olsa da, heç kim bizi dayandıra bilməz. Bizim Ermənistan ərazisinə iddiamız yoxdur, ancaq onlar da öz iddialarını geri döndərməlidirlər. Bizdən əsassız iddialarla şantaj dili ilə danışmaq onlara baha başa gələcək və onu yəqin ki, hər kəs görür"*.

# "Ordu quruculuğu prosesi davam etdiriləcək"

Bunu Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində deyib.

Dövlət büdcəmizdə ən böyük xərclərin hərbi xərclər, eyni zamanda Qarabağ və Şərqi Zəngəzurun bərpası ilə bağlı xərclərin olduğunu xatırladan Prezident ölkəmizin çox güclü hərbi sənaye kompleksi yaratdığını, artıq bunun birinci mərhələsinin başa çatdığını, ikinci mərhələnin isə daha genişmiqyaslı olacağını diqqətə çatdırıb.

# "Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib"

"Bu gün Azərbaycan xalqı bir yumruq kimi birləşib, bu birlik daimi olmalıdır".

Bu sözləri Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində deyib. Bizi birləşdirən ümummilli məsələnin Qarabağın azad edilməsi olduğunu xatırladan dövlətimizin başçısı qeyd edib: *"Bu məsələ artıq öz həllini tapdı və bu birlik daimi olmalıdır. Milli birlik daimi olmalıdır, çünki Azərbaycanın önəmi artır, dünyada oynadığı rolu artır"*.

# "Bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq"

"Keçmiş köçkünlərin öz dədə-baba torpaqlarına qaytarılması prosesi uğurla gedir. Bu il ən azı 20 yaşayış məntəqəsinə keçmiş köçkünlər qayıdacaq".

Bu barədə Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində qeyd edib. Planın azad edilmiş torpaqlarda ilin sonuna qədər 5 şəhərdə və 15 kənddə 20 min keçmiş köçkünün yerləşdirilməsi olduğunu vurğulayan dövlətimizin başçısı deyib ki, yüzdən çox şəhərin və kəndin baş planları hazırlanıb, təsdiqlənib, bir çox şəhər və kəndlərdə artıq inşaat işləri başlanıb.

# "Qarabağ və Şərqi Zəngəzur iqtisadi inkişafımızın yeni bir dayaq nöqtəsi olacaq"

Bu sözləri Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində deyib. Dövlətimizin başçısı diqqətə çatdırıb ki, o bölgələrdə həm kənd təsərrüfatı, həm bərpa olunan enerji ilə bağlı layihələr, turizm layihələri qeyri-neft sektoruna böyük dəstək verəcək.

O, qeyd edib ki, əgər əvvəlki illərdə investisiyalar daha çox neft-qaz sahəsinə qoyulurdusa, bu gün qeyri-neft sektoruna qoyulan sərmayə milyardlarla dollar səviyyəsindədir. *"Əldə edilmiş razılaşmalar, imzalanmış kontraktlar yaxın bir neçə ildə özünü elə göstərəcək, sıçrayış elə böyük olacaq ki, bunu hər kəs görəcək"*, - deyə Prezident bildirib.

# "Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir"

"Təbii ki, biz nəqliyyat sahəsində işləri davam etdirəcəyik. Bu gün Azərbaycan dünya miqyasında nəqliyyat mərkəzi kimi qəbul edilir. Bizə həm Qərbdən, həm Şərqdən, həm Şimaldan, həm Cənubdan müraciətlər daxil olur".

Bu sözləri Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində deyib. Azərbaycan ərazisində bütün nəqliyyat infrastrukturunun işlək vəziyyətdə olduğunu vurğulayan dövlətimizin başçısı qeyd edib: *"Sadəcə olaraq bəzi dəmir yollarında modernləşdirmə işləri aparılmalıdır və biz bunu da edirik. Dünyadakı geosiyasi vəziyyətin yaxın gələcəkdə dəyişməsi, yəqin ki, mümkün deyil. Belə olan halda bizim nəqliyyat infrastrukturumuza olan ehtiyac daha da artacaq"*.

# Vergi xidməti işçiləri medallarla təltif olunub

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti işçilərinin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Vergi sisteminin inkişafında xidmətlərinə görə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin aşağıdakı işçiləri təltif edilmişlər:

3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Vəliyev İlkin Etibar oğlu,

"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə

Musayev Orxan Azad oğlu,

1-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə

Abdullayev Vəli Həsən oğlu, Kəngərli Cavid Muxtar oğlu, Musayev Fəxrəddin Binnət oğlu, Süleymanlı Elxan Süleyman oğlu, Şahinzadə Fərman İlham oğlu,

2-ci dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə

Mahmudov Fuad Malik oğlu, Məhərrəmov Ramiz Bulut oğlu və

3-cü dərəcəli "Vergi orqanlarında xidmətdə fərqlənməyə görə" medalı ilə Əhmədov Rəşad Kazım oğlu.

*Təbrik edirik!*

# "Ermənistanın havadarlarına mesaj: Gedin öz işinizlə məşğul olun"

Fevralın 14-də keçirilən andiçmə mərasimində söylədiyi nitqində Prezident İlham Əliyev Azərbaycan-Ermənistan münasibətlərini müzakirə etmək, həmçinin iki ölkə arasında vasitəçilik etmək istəyənlərə də mesaj göndərib, bizə bu məsələdə vasitəçinin lazım olmadığını bəyan edib. Azərbaycan-Ermənistan normallaşması prosesinin beynəlxalq gündəlikdən düşməli olduğunu diqqətə çatdıran dövlətimizin başçısı bildirib: *"Yerindən duran bu məsələ ilə məşğul olmaq istəyir, gedin, öz işinizlə məşğul olun. Biz öz məsələmizi həll etmişik"*.

# "Bizə sabit neft hasilatı lazımdır və investorlar qarşısında bu vəzifəni qoymuşuq"

"Ənənəvi yanacaq növləri - neft-qaz sahəsində işlər davam etdiriləcək. Neft hasilatının sabitləşməsi istiqamətində işlər gedir, hesab edirəm ki, yaxın gələcəkdə nəticələr olacaq".

Bu sözləri Prezident İlham Əliyev fevralın 14-də keçirilən andiçmə mərasimindəki nitqində deyib.

"Bizə sabit neft hasilatı lazımdır və biz investorlar qarşısında da bu vəzifəni qoymuşuq", - deyən dövlətimizin başçısı vurğulayıb ki, müəyyən narahatedici məqamlar olub və işgüzar qaydada təmaslar əsasında bu məsələlərin həlli gözlənilir. Gələcəkdə bizim ixrac coğrafiyamız artacaq, təbii ki, Avropa istiqaməti üzrə. Bu yaxınlarda bizim yeni resurs bazamız işə salınıb. "Şahdəniz" yatağından sonra ikinci resurs bazamız "Abşeron" qaz-kondensat yatağından ilk qaz çıxarılıb və yəqin ki, biz yaxın gələcəkdə bu yatağın işlənilməsinin ikinci mərhələsinə də başlayacağıq.

Gələn il "Azəri-Çıraq-Günəşli" yatağının dərin laylarından qaz hasilatının nəzərdə tutulduğunu vurğulayan dövlətimizin başçısı bildirib: *"Bu da bizim resurs bazamızı artıracaq. Ondan başqa, "Ümid", "Babək", "Şəfəq", "Asiman", "Qarabağ" neft və qaz-kondensat yataqlarından hasilatı başlamaq üçün bir çox xarici investorlar tərəfindən təkliflər var. Vaxtilə bizi istəməyən qüvvələr şayiə yayırdılar ki, Azərbaycanda neft yoxdur. Azərbaycan 1997-ci ildən bəri neft hasilatını yüksək səviyyədə saxlayır və bir çox ölkələrə neft ixrac edir. Sonra deyirdilər ki, Azərbaycanda qaz yoxdur. Təbii ki, bu da cəfəngiyatdır, bax, sadaladığım bu yataqlar onu əyani şəkildə göstərir"*.

# Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kurs Azərbaycanı dünya birliyində qüdrətli dövlətə çevirib

"Göstərilən yüksək etimada görə Prezident İlham Əliyevə dərin təşəkkürümü bildirirəm. Fürsətdən istifadə edərək müstəqil Azərbaycan Respublikasının tarixində ilk dəfə olaraq bütün suveren ərazilərimizidə keçirilən prezident seçkilərinə görə təbriklərimi çatdırıram. Qədirbilən Azərbaycan xalqı şəffaf və demokratik şəraitdə öz layiqli və ədalətli seçimini edərək dövlətimizin başçısına bir daha yüksək inam və etimadını göstərdi".



Bu sözləri Milli Məclisin fevralın 16-da keçirilən iclasında Baş nazir vəzifəsini icra edən Əli Əsədov deyib. O bildirib ki, Prezident İlham Əliyevin Azərbaycana rəhbərlik etdiyi möhtəşəm 20 ildə həyata keçirilən siyasi kurs Azərbaycanın müstəqilliyini daha da möhkəmləndirib, dünya birliyində öz layiqli yerini tutan qüdrətli dövlətə çevirməsini təmin edib.

# "Azərbaycan vətəndaşının rifahının yaxşılaşdırılması hökumət qarşısında ən önəmli vəzifə olaraq duracaq"

"Növbəti dövrdə müdafiə və milli təhlükəsizliyin daha da gücləndirilməsi, hərbi sahədə texnoloji inkişaf və hərbi sənaye kompleksinin təkmilləşdirilməsi, Silahlı Qüvvələrin maddi-texniki təminatının yaxşılaşdırılması, sərhədlərimizin toxunulmazlığının təmin edilməsi əsas prioritetlər olacaq". Bunu Milli Məclisin fevralın 16-da keçirilən iclasında Baş nazir vəzifəsini icra edən Əli Əsədov bildirib.

Ə.Əsədov qeyd edib ki, cəmiyyətimizin həyatının bütün sahələrində, o cümlədən sosial sahədə inkişaf dövlətimizin başçısının hər zaman diqqət mərkəzində olub və olacaq. Azərbaycan vətəndaşının rifahının yaxşılaşdırılması, o cümlədən şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi hökumət qarşısında ən önəmli vəzifə kimi duracaq.

# "Belarus Azərbaycanla strateji tərəfdaşlığı çox yüksək qiymətləndirir"




"Biz Azərbaycanla strateji tərəfdaşlığımızı çox yüksək qiymətləndiririk".

Bu fikri Azərbaycanın Belarusdakı səfiri Məhərrəm Əliyevin etimadnaməsini qəbul edərkən bu ölkənin Prezidenti Aleksandr Lukaşenko söyləyib.

A.Lukaşenko bu yaxınlarda keçirilən prezident seçkilərində xalqın böyük dəstəyini qazanmış İlham Əliyevə konstruktiv yanaşmasına görə xüsusi minnətdarlığını bildirib.

Dövlət başçısı maraq doğuran sahələrdə məsələlərin həlli üçün iki ölkə liderləri arasında əldə olunan razılaşmalardan daha fəal faydalanmağı təklif edib.

Qeyd edək ki, fevralın 15-də Belarus Prezidenti Aleksandr Lukaşenko səkkiz ölkənin səfirlərinin etimadnaməsini qəbul edib.

# Türkiyə və Azərbaycanın Qars-Naxçıvan dəmir yolunun tikintisi üçün böyük potensialı var




Prezident İlham Əliyevin Türkiyəyə rəsmi səfəri və qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini müzakirə etməsi hər iki dövlətin beynəlxalq siyasi proseslərə vahid mövqedən yanaşdıqlarını göstərir.

Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən Zəngəzur dəhlizi və bunun tərkibinə daxil olan Qars-İğdır-Aralıq-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu ümumilikdə Orta Dəhlizə daxil olan bir layihədir. Bu yol yalnız Türkiyə və Naxçıvanı Azərbaycanın əsas ərazisi ilə birləşdirmək xarakteri daşımır, həmçinin bu layihələr Avropa ilə Asiyanı birləşdirən beynəlxalq tranzit yollardır.

Türkiyədə fəaliyyət göstərən Siyasi, İqtisadi və Cəmiyyət Araşdırmaları Fondunun xarici siyasət üzrə müşaviri Can Acun bildirib ki, Azərbaycan və Türkiyə hökumətləri layihənin iqtisadi və həm də siyasi əhəmiyyətini nəzərə alıb, onun tez bir zamanda həyata keçirilməsini istəyirlər. 2020-ci ilin fevral ayının 25-də "Azərbaycan Respublikasının Hökuməti və Türkiyə Respublikasının Hökuməti arasında "Qars-İğdır-Aralık-Dilucu-Sədərək-Naxçıvan-Culfa dəmir yolu xətti layihəsi ilə bağlı Anlaşma Memorandumu" imzalanıb. Bununla yanaşı, ötən ilin sentyabr ayının 25-də Naxçıvanda Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Qars-Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu"nu imzalayıblar.

Qars-Naxçıvan dəmir yolu layihəsinin tikintisinə yönəlmiş texniki hazırlıqlar davam edir və texniki-iqtisadi əsaslandırma hesabatı təsdiqlənib. Dəmir yolu 224 kilometr uzunluğunda və 5 stansiyadan ibarət olacaq.

C.Acun qeyd edib ki, Ermənistan qədər kiçik və iqtisadi cəhətdən zəif bir dövlətin Zəngəzur dəhlizinin açılmasına necə münasibət bəsləməsi heç nəyi həll etməyəcək.

# "Yaşıl texnologiyaların" tətbiqi məsələləri müzakirə olunub

İqtisadiyyat Nazirliyində keçirilən görüşdə ekoloji baxımdan əlverişli olan "yaşıl texnologiyaların" tətbiqi məsələləri müzakirə olunub.

Nazirlikdən verilən məlumata görə, nazir Mikayıl Cabbarov Çinin BYD şirkətinin Mərkəzi Asiya ölkələri üzrə icraçı direktorun müavini İvan Sao ilə görüşüb.



Görüşdə ölkəmizin iqtisadi prioritetləri, ekoloji baxımdan əlverişli olan "yaşıl texnologiyaların" tətbiqi barədə məlumat verilib, bu sahədə tərəfdaşlıq perspektivləri vurğulanıb, Çin şirkətləri ölkəmizdə yaradılmış əlverişli işgüzar mühitdən yararlanmağa dəvət olunub.

Həmçinin görüşdə ekoloji baxımdan əlverişli olan texnologiyaların tətbiqi perspektivləri və bu istiqamətdə BYD şirkəti ilə əməkdaşlığın dərinləşdirilməsi imkanları müzakirə edilib.

# Azərbaycan-Səudiyyə Ərəbistanı iqtisadi əlaqələri uğurla inkişaf edir

İqtisadiyyat naziri Mikayıl Cabbarov Səudiyyə Ərəbistanı Krallığının energetika nazirinin neft və qaz texniki və tənzimləmə məsələləri üzrə müavini Məcid bin Hindi Aluteibinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Nazirlikdən bildirilib ki, iqtisadiyyat naziri Azərbaycan-Səudiyyə Ərəbistanı iqtisadi əlaqələrinin uğurla inkişaf etdiyini, enerji sahəsinin ikitərəfli əməkdaşlıq gündəliyində əsas istiqamətlərdən biri kimi müəyyənləşdirildiyini vurğulayıb. Ölkəmizdə investorlar üçün əlverişli mühitin olduğu, Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətinin Azərbaycanda alternativ və bərpa olunan enerji sahəsində həyata keçirdiyi layihənin əhəmiyyəti qeyd edilib. İnvestisiya əməkdaşlığının genişləndirilməsi, enerji keçidi dövründə rəqəmsallaşma üzrə təcrübə mübadiləsinin aparılması istiqamətlərində əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsinin əhəmiyyəti diqqətə çatdırılıb.

Səudiyyə Ərəbistanı Krallığının energetika nazirinin müavini Məcid bin Hindi Aluteibi ölkəsinin Azərbaycanla qarşılıqlı biznes dialoqunun genişlənməsindən məmnunluğunu ifadə edib, ikitərəfli iqtisadi əlaqələrin gündəliyində olan məsələlər, birgə layihələrin reallaşdırılması barədə fikirlərini bildirib.

# "AzerGold" tərəfindən 2000-ci xəlitə istehsal edilib

"AzerGold" Qapalı Səhmdar Cəmiyyəti (QSC) tərəfindən 2000-ci xəlitə istehsal edilib.

QSC-dən bildirilib ki, Çovdar İnteqrəolunmuş Regional Emal Sahəsində (ÇİRES) emal edilmiş qızıl və gümüş tərkibli xəlitənin çəkisi 21 kiloqramdır. Xəlitənin növbəti mərhələdə 999.9 əyarda saflaşdırılması və dünya birjasında satışı nəzərdə tutulub.

Qeyd edək ki, "AzerGold" QSC tərəfindən ilk xəlitə tökümü 2016-cı il oktyabrın 13-də həyata keçirilib. QSC hazırda Daşkəsən və Göygöl rayonlarında yerləşən mədənlərdən qiymətli metal filizlərinin hasilatını, ÇİRES-də isə emalını həyata keçirir.

Xatırladaq ki, bu günədək Səhmdar Cəmiyyət tərəfindən hasil edilmiş 402 min unsiya qızıl, 761 min unsiya gümüşün dünya birjasında satışı nəticəsində ölkə iqtisadiyyatına ümumilikdə 1 milyard 137 milyon manatdan çox vəsait cəlb edilib.

# Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsi

Azərbaycanda auditin keyfiyyətcə yeni inkişaf mərhələsi 2003-cü ildən indiyə qədərki dövrü əhatə edir. Auditin yaranması və bərqərar olması Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin, inkişafı və beynəlxalq arenaya çıxması isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adı ilə bağlıdır. Çünki dünyanın heç bir ölkəsində belə mükəmməl hazırlanmış uzunömürlü, beynəlxalq maliyyə qurumları və xarici həmkarlarımız tərəfindən yüksək dəyərləndirilmiş və dünyada getdikcə model qanun səviyyəsində qəbul edilməyə başlamış nə audit qanunvericiliyi, nə də ki dövlət və ya hökumət başçısı səviyyəsində göstərilən diqqət və qayğı yoxdur. Bunun bariz nümunəsi kimi Auditorlar Palatasının üzvləri və əməkdaşlarının yüksək dövlət təltiflərinə layiq görülməsi ölkə auditorlarını bir daha ruhlandırmaqla bərabər, üzərimizə düşən vəzifələri yeni dövrün çağırışları tələbindən daha məsuliyyətlə işləməyə sövq edir.

Auditorlar Palatası tərəfindən hazırlanan 2021-2030-cu illəri əhatə edəcək auditin üçüncü inkişaf konsepsiyası Azərbaycanda auditor fəaliyyətinin müasir vəziyyəti və onun inkişafına mane olan əsas problemlər, auditor xidmətinin keyfiyyət problemləri, auditor fəaliyyətində şəffaflığın artırılması, dempinq, haqsız rəqabət və korrupsiyaya qarşı mübarizə auditor xidmətlərinə tələbatın və ictimai etimadın yüksəldilməsini, eləcə də qabaqcıl xarici təcrübənin tətbiqi və beynəlxalq peşəkar qurumların fəaliyyətində milli auditin iştirakının genişləndirilməsini, rəqəmsal iqtisadiyyat şəraitində auditor fəaliyyətində innovasiyaların tətbiqi istiqamətlərini (konseptual əsasları), auditor kadrlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsini, auditor xidməti bazarında tənzimləmə və təşkilin inkişaf istiqamətlərini, auditor fəaliyyətinin normativ hüquqi təminatının yaxşılaşdırılmasını və 2030-cu ilə qədər Azərbaycanda auditor fəaliyyətinin inkişafının konseptual istiqamətlərini özündə əks etdirir.

Konsepsiyada ehtiva olunan əsas istiqamətlərin reallaşdırılması ölkənin qanunvericilik aktlarına müvafiq dəyişikliklərin edilməsi, zəruri tənzimləyici aktların işlənib hazırlanması və nəşri, kompleks təşkilati, təhsil, maarifləndirmə, informasiya təminatı üzrə tədbirlərin həyata keçirilməsi vasitəsilə nəzərdə tutulur.

Auditin yaranmasından bu dövrədək olan müddət ərzində auditin hüquqi qanunvericilik bazası təkmilləşdirilmiş, audit ölkənin iqtisadi və ictimai həyatında möhkəmlənmiş, Azərbaycan auditinin beynəlxalq qurumlar tərəfindən tanınması və xarici əlaqələrinin güclənməsi baş vermiş və bu sahədə iş indi də davam etdirilməkdədir.

Belə ki, bazar infrastrukturu olmaq etibarilə milli iqtisadiyyatın, ilk növbədə sahibkarlığın inkişafına töhfəsini daha da artırmaq üçün auditor xidmətinin daha geniş anlamda qəbul edilməsi, həmin anlayışa sifarişçilərə iqtisadi strategiyaya dair məsləhət və tövsiyələr verməkdən tutmuş optimallaşdırma məsələlərinə qədər əhatəli bir xidmət sahəsinin daxil edilməsi tələb olunur.

Bundan başqa, Azərbaycan Respublikası Auditorlar Palatası Beynəlxalq Mühasiblər Federasiyası (İFAC) tərəfindən təsdiq olunmuş Beynəlxalq Audit Standartları və yeni dövrün çağırışları nəzərə alınmaqla audit qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində də çox mühüm işlər görmüşdür.

Auditorlar Palatası tərəfindən 2023-cü il ərzində Azərbaycan Respublikasının audit və digər qanunvericiliyinə edilmiş dəyişikliklər barədə irad və təkliflər hazırlanaraq, razılaşdırılması üçün müvafiq qurumlara göndərilmişdir.

Eyni zamanda, Azərbaycan Respublikasının qanunvericiliyinə edilmiş dəyişikliklərlə bağlı "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" 2022-ci il 30 dekabr tarixli Azərbaycan Respublikasının Qanunu barədə, Vergi Məcəlləsinə edilmiş dəyişikliklər barədə, "Hədəfli maliyyə sanksiyaları haqqında" 2022-ci il 30 dekabr tarixli Azərbaycan Respublikasının Qanunu barədə, "Öhdəlik daşıyan şəxslərin daxili nəzarət proqramının cavab verməli olduğu minimum Tələblər"ə dair, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair, "Qiymətli kağızlar bazarı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair, "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair, "Kredit büroları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair, Siyasi partiyanın maliyyə hesabatının forması, məzmunu və təqdim edilməsi Qaydasına dair, "Nəzarət olunan xarici müəssisə haqqında arayışın rezident fiziki və hüquqi şəxslər tərəfindən vergi orqanına təqdim edilmə forması və qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Kollegiyasının 2022-ci il 19 aprel tarixli 8 nömrəli Qərarında dəyişikliklər barədə, "Avtomobil nəqliyyatı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair, Problemli aktivlərin (əmlakların) və onlar üzrə tələb hüquqlarının satılması, idarəetməyə verilməsi və iştirak payı kimi qoyulması üzrə Müsabiqə Komissiyasının fəaliyyət Qaydasına dair, "Bank olmayan kredit təşkilatları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair, "Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair, Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında Azərbaycan Respublikasının Qanununa dair, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanununa dair" qanunlara və normativ aktlara dair şərhlər hazırlanmış, auditorlara çatdırılmış, seminarlar keçirilmiş və Palatanın rəsmi internet səhifəsində və Auditorun şəxsi kabineti sistemində yerləşdirilmişdir.


*Elnur İbrahimov, Auditin hüquqi tənzimlənməsi və dövlət orqanları ilə iş idarəsinin rəisi*

Digər tərəfdən, Azərbaycan Respublikasının həmin qanunvericiliklərinə edilmiş dəyişikliklərlə bağlı "Peşə mənsublarının fəaliyyətinin ilkin təməl prinsipləri", "Haqsız rəqabətə qarşı mübarizə üzrə komitənin hüquqi əsasları, məqsədi, vəzifə və səlahiyyətləri barədə" Təlimat, "Auditor təşkilatlarında daxili nəzarətin təşkili və həyata keçirilməsinin monitorinqinin nəticəsi barədə arayış", "Auditor təşkilatlarında ƏL/TMM-ə qarşı mübarizə sahəsində daxili nəzarət sisteminin səmərəliliyinin müəyyən edilməsi üzrə metodik vəsait", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasının və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair tədbirlər haqqında Metodik Göstəriş", "Auditor fəaliyyəti ilə məşğul olan şəxslərin cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində öhdəlikləri", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsində risk əsaslı Nəzarət Proqramı", "Auditorlara şübhəli əməliyyatların aşkarlanması indikatorlarının və ƏL/TMM tipologiyalarının müəyyən edilməsi və müntəzəm olaraq yenilənməsinə dair Metodik Göstəriş", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizəyə dair tədbirlərin Təqdimatı", "ƏL/TMM üzrə qanunvericiliyin pozulmasına dair riskin və onun dərəcələrinin müəyyən edilməsi üçün auditorlar arasında Özünüqiymətləndirmə üzrə sorğu sualları cədvəli", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinin qarşısının alınmasına dair əsas prinsiplər" metodik materiallar hazırlanaraq auditorların xidməti istifadəsinə verilmişdir.

Belə ki, Beynəlxalq standartlara uyğun olaraq şəffaflığın, hesabatlılığın, maliyyə nəzarətinin və intizamın yaradılması və davamlı təkmilləşdirmə işlərinin aparılması, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yürütdüyü iqtisadi islahatların əsas tərkib hissəsi kimi yeni dövrdə qlobal və regional müstəvidə Azərbaycanın qarşıda dayanan məqsədlərə nail olunması hədəfləri üçün vətəndaşların gördükləri işlərinə daha məsuliyyətlə yanaşmağı tələb edir.

Auditorlar Palatası Azərbaycanın iqtisadi inkişafına daha səmərəli və şəffaf yolla çatmaq, mülkiyyətçilərin və auditorların mənafelərinin qorunması sahəsində öhdəliklərinə düşən vəzifələri bundan sonra da böyük məsuliyyətlə yerinə yetirmək əzmindədir.

# ОАО "Азерэнержи" и bp уточнили шаги по электрификации Сангачальского терминала



ОАО "Азерэнержи" и bp подписали 20 февраля Меморандум о взаимопонимании (MoB) по разработке технического обоснования проекта электрификации Сангачальского терминала (bp - оператор Сангачальского терминала), передает Trend со ссылкой на пресс-релиз "Азерэнержи".

Напомним, что согласно недавно подписанному документу, обе стороны будут сотрудничать в определении общего объема работ по "Проекту электрификации Сангачальского терминала" (STEL).

"Стороны также будут совместно согласовывать детальный технический проект и коммерческую основу проекта для уточнения объема работ. Эти вопросы являются основным элементом определения коммерческой эффективности проекта", - указано в сообщении.

В пресс-релизе ОАО подчеркивается, что в случае успешной реализации проекта STEL, сжигание газа, используемого для энергоснабжения Сангачальского терминала, будет остановлено, и терминал будет снабжаться энергией из государственной энергосистемы Азербайджана.

В документе напоминается, что "Проект электрификации Сангачальского терминала" (STEL) реализуется вместе с проектом компании bp по строительству солнечной электростанции на территории Джебраильского района - "Шафаг" мощностью 240 МВт.

От "Шафаг" энергия будет передаваться в Джебраильский район, а на Сангачальский терминал поступать из сети "Азерэнержи.

"Поскольку "зеленая" электроэнергия менее углеродоемкая, то выбросы парниковых газов от нефтегазовых операций на терминале сократятся в результате электрификации, что будет способствовать сокращению выбросов в Каспийском регионе и переходу страны к "зеленой" энергетике", - отмечено в сообщении ОАО.

# Азербайджан и Китай обсудили возможности внедрения экологически чистых технологий

Об этом, как сообщает во вторник Trend, написал в соцсети X министр экономики Азербайджана Микаил Джаббаров.

«В ходе встречи с заместителем генерального директора китайской компании BYD по странам Центральной Азии Иваном Цао (Ivan Cao) обсуждались направления сотрудничества между нашей страной и компанией, реализация совместных проектов и возможности внедрения экологически чистых технологий», - говорится в публикации.

Отметим, что ранее в рамках визита в Китай делегации, возглавляемой первым заместителем министра экономики Эльнуром Алиевым, состоялся ряд деловых встреч, в ходе которых обсуждалось использование экологически чистого транспорта в Азербайджане.



В рамках визита делегация встретилась с руководством предприятий, производящих автомобили в Китае, ознакомилась с производственной деятельностью заводов. На встречах была представлена информация о благоприятной деловой среде Азербайджана и возможностях, созданных для инвесторов.

# Азербайджанская продукция представлена на выставке Gulfood 2024

Gulfood 2024 — 29-я Международная выставка индустрии продуктов питания, напитков и HoReCa проходит в Дубае. При поддержке Министерства экономики и организации Агентства по поощрению экспорта и инвестиций – AZPROMO, более 20 компаний Азербайджана представляют свою продукцию на едином страновом стенде Made in Azerbaijan. Как сообщили в AZPROMO, на национальном стенде представлены фруктовые соки, молочные продукты, минеральные воды, фрукты и овощи, икра, кондитерские изделия, чай, сухофрукты, оливковое масло, специи и мясные продукты. Кроме того, на стенде представлены AZPROMO и Агентство по развитию малого и среднего бизнеса (KOBIA), посетителям предложены соответствующие печатные материалы о поддержке, оказываемой предпринимателям, благоприятной деловой и инвестиционной среде, созданной в нашей стране. В рамках выставки, которая продлится до 23 февраля, азербайджанские предприниматели проведут встречи со своими коллегами из разных стран и обсудят вопросы экспорта продукции.

# В Агдаме создается предприятие по производству цемента и добавок в бетон

Об этом в социальной сети «X» сообщил министр экономики Азербайджана Микаил Джаббаров. Министр отметил, что ООО Qreys.A. присвоен статус резидента Агдамского промышленного парка. Компания создаст на территории промышленного парка предприятие по производству цемента и добавок в бетон. На предприятии общей инвестиционной стоимостью 6,5 миллиона манатов планируется создать 35 постоянных рабочих мест.

## КОММЕНТАРИЙ

# Посла Беларуси в Азербайджане А.А.Равкова о парламентских выборах в Беларуси для газеты “Иггисадийят” («Экономика»)

25 февраля 2024 г. в Беларуси проводится Единый день голосования. Состоятся выборы нового состава Палаты представителей Национального собрания (Парламента) Республики Беларусь – будет избрано 110 депутатов нижней палаты.

Нынешняя избирательная кампания – крупнейшая за всю историю независимости Республики Беларусь. Кроме депутатов парламента предстоит избрать 12.514 депутатов местных Советов депутатов: в областные и Минский городской Советы – 388 депутатов, районные – 3 434, городские (городов областного подчинения) – 373, городские (городов районного подчинения) – 223, поселковые – 63, сельских – 8 033 депутата.

Выборы проводятся на фоне серьезных внешнеполитических вызовов – военного конфликта в Украине, давления и санкций со стороны государств и структур коллективного Запада. Выборы в таких условиях – это не только формирование органов власти, но еще и механизм консолидации и единства нашего народа. Эти выборы дают возможность гражданам послужить делу сохранения мира и стабильности в нашей стране. Кроме того, выборы в Парламент и местные Советы депутатов – это возможность каждому участвовать в управлении страной, влиять на принимаемые решения и видеть результаты своего труда.

Сегодня белорусы решают непростую задачу строительства национальной политической системы, которая бы максимально обеспечивала и защищала ценности мира, безопасности и социальной справедливости в стране. Поэтому выборы 25 февраля – это также большая ответственность за будущее Беларуси.

Несмотря на то, что нынешняя электоральная кампания проходит на фоне попыток грубого вмешательства во внутренние дела независимой Беларуси, политическая мудрость, национальное единство и желание жить в мирной стране позволят белорусам сделать правильный выбор.

Выборы в Беларуси пройдут с участием многочисленных международных наблюдателей, в том числе из Азербайджана.

Наш конституционный строй в очередной раз проходит важное испытание. Правильный и осознанный выбор каждого гражданина определит дальнейшее устойчивое развитие суверенной Беларуси, благополучное будущее наших детей и внуков.

Формирование верхней палаты белорусского парламента состоится на выборах 4 апреля 2024 г., когда областные советы депутатов (в Беларуси 6 областей) и Минского городского Совета депутатов изберут членов Совета Республики Национального собрания Республики Беларусь.

# Биржевой товарооборот Беларуси и Азербайджана вырос в 4,5 раза

19 февраля, Минск /Корр. БЕЛТА/. Сумма биржевых сделок, заключенных резидентами Азербайджана в 2023 году, достигла $44,6 млн, в 4,5 раза превысив показатель 2022 года. Об этом корреспонденту БЕЛТА сообщили в пресс-службе БУТБ.

Рост объемов биржевой торговли с Азербайджаном связан с активными экспортными поставками продукции белорусской деревообрабатывающей промышленности. Так, за прошлый год на азербайджанский рынок реализовано более 301 тыс. куб.м пиломатериалов, что почти в шесть раз больше, чем в 2022 году. При этом существенно расширился круг азербайджанских участников торгов. Если в 2022 году сделки на БУТБ заключали лишь 7 компаний из Азербайджана, то в 2023 году их стало 46.



«Сейчас биржевой механизм работает только в экспортном направлении, обеспечивая непосредственный доступ азербайджанских покупателей к белорусским производителям пилопродукции. В результате в прошлом году Азербайджан занял второе место после Китая по импорту пиломатериалов через биржевую площадку. Несмотря на это, потенциал сотрудничества наших стран в сфере биржевой торговли раскрыт не полностью.

В частности, помимо продукции деревообработки, белорусские предприятия готовы экспортировать в Азербайджан молокопродукты, мясо и металлоизделия. Все это пользуется спросом у потребителей. Кроме того, имеются значительные резервы по поставкам азербайджанских товаров в Республику Беларусь. Это может быть пищевое сырье, плодоовощная продукция, текстильные изделия, смазочные материалы. Иными словами, точек соприкосновения очень много, а на бирже созданы необходимые условия для взаимовыгодной торговли», - рассказали в пресс-службе.

По состоянию на 1 февраля 2024 года на БУТБ аккредитованы 95 азербайджанских компаний. Более половины из них пришли на биржу в течение прошлого года для участия в торгах лесопродукцией.

В рамках дальнейшего развития сотрудничества с Азербайджаном прорабатывается вопрос аккредитации биржевого брокера в этой стране. Это позволит эффективнее решать задачи по привлечению на биржевую площадку представителей азербайджанского бизнеса и расширению номенклатуры товаров, задействованных во взаимной торговле.

# Рынок страхования по «Зеленой карте» значительно возрос

В 2023 году в Азербайджане было оформлено 57 347 договоров по международной системе страхования «Зеленая карта», по которым было собрано 10,131 миллиона манатов страховых взносов. Это соответственно в 2,6 и в 3,4 раза больше, чем в 2022 году.

«Большую роль в резком росте этих показателей с 1 января прошлого года сыграла продажа «Зеленых карт» на автомобили, зарегистрированные в Грузии и Казахстане. Так, 12 335 договоров «Зеленой карты» были оформлены за пределами страны, в том числе 9 075 - в Казахстане и 3 260 - в Грузии. За счет этих договоров было собрано 6,145 миллиона манатов страховых взносов. Другими словами, за отчетный период Азербайджан получил более 6 миллионов манатов дохода от экспорта страховых услуг. Из них 179 тысяч манатов направлено на страховые выплаты по ДТП, совершенным транспортными средствами, зарегистрированными в Казахстане и Грузии. В 2023 году по всей стране было заключено 45 012 договоров по системе «Зеленая карта» и собрано 3,986 миллиона манатов страховых взносов. Это в 2 раза и на 32 процента больше, чем в 2022 году соответственно», - говорится в сообщении Бюро.

# "Yeni era"nın təhsili. Nəyi, necə edək?



***Məlum olduğu kimi, ölkədə bir çox sahələrdə ciddi islahatların aparılması zərurəti yaranıb. Müəyyən islahatlar planlaşdırılır. "Yeni era"nın yaradılması barədə ciddi söhbətlər gedir. Ən çox islahatlara ehtiyac olan sahələrdən biri də təhsil sistemidir. ETN təhsil sektorunda "Yeni era"nın yaradılması barədə, görəsən, nələr planlayır? Hər hansı ideya, strateji yol xəritəsi varmı? Bu barədə konkret məlumatlarımız olmasa da, bəzi təkliflər verə bilərik.***

Bu sahədə çox ciddi işlər görülməlidir, beynəlxalq təcrübə öyrənilməlidir. Bizim üçün indiki dönəmdə TC və RF-nin təcrübəsi maraqlı ola bilər.

Problemlərin kökü və identikliyi baxımından RF-nin təcrübəsi daha maraqlıdır. Çünki TC elm və təhsil baxımından güclülər dəstəsində, RF və biz isə aşağı eşalondayıq.

RF-da da təhsildə ciddi böhran var və bu problemlərin bizə uyğunluğu daha çoxdur. Ona görə RF təcrübəsinə diqqət edək.

RF-də elm və təhsilin durumu ölkədə ciddi narahatlıq doğurur. Akademiklər, sıravi müəllimlər, valideynlər öz narazılığını mütəmadi olaraq KİV-də bildirirlər. Ölkə prezidenti hər il bir neçə dəfə elm-təhsil ictimaiyyətinin iştirakı ilə bu sahənin problemlərini müzakirə edir.

RF EA-nın həqiqi üzvü R.Niqmatulin, akademiyanın müxbir üzvü A.Savvateyev və digər alimlər konkret faktlar və təkliflərlə dəfələrlə RF ETN-ə, Maarif Nazirliyinə, son vaxtlar isə ölkə rəhbərliyinə müraciətlər etmişlər.

Maraqlıdır ki, onlarda bu sahədə söz sahibləri sanballı alimlərdir və orada tənqidə görə də heç kimə "gözün üstə qaşın var" deyən yoxdur. Digər tərəfdən son 30 ildə RF ETN təhsil lahiyələrinə (onun elmi, metodik, informasiya təminatına) milyard dollarlarla investisiya qoyub, proseslər şəffaf aparılıb, nəticəvi olub. İnternet üzərindən hansı universitetlərə və ya qurumlara nə vaxt, hansı layihələr verildiyi, onun maliyyə tutumu, alınan nəticələri aydın görmək mümkündür.

Bizdə isə hansı işlər aparılıb, nə nəticələr alınıb, bunlara nə qədər vəsait israf olunub və s. məlum deyil. Nazirin MM-də çıxışlarında hərdən bəzi rəqəmlər səsləndirilir (məsələn, " bu il ərzində 500 layihəyə 600 milyon manat sərf etmişik" kimi). Amma nazirliyin öz saytında, mətbu orqanında və digər mənbələrdə bu barədə heç bir məlumat və açıqlamalar yoxdur. ETN bunu dövlət sirri hesab edir? Məhz belə qeyri-şəffaf əməliyyatlar nəticəsində son illər artan təhsil büdcəsi müqabilində təhsildə real inkişaf olmadı, əksinə oldu.

RF-nin bəzi təhsil mütəxəssisləri öz ölkələrinin rəhbərliyinə müraciət edərək, "təhsilin xilası üçün fövqəladə addımlar atılması"-nı təklif edirlər. Maraqlananlar üçün məqalənin adını qeyd edirik: "Принять экстренные меры, чтобы спасти образование".

Məqalə belə başlayır: "Təhsil sistemi böhranlı hala gəlib. Ciddi alimlər, vicdanlı, qayğıkeş insanlar artıq xeyli müddətdir həyəcan təbili çalır, həll yolları təklif edirlər. Onlayn olaraq nazirliyə və ölkə rəhbərliyinə müraciətlər edirlər. Ənənəvi, klassik rus təhsilinin vətənpərvərlərinin verdiyi bu təkliflər eşidiləcəkmi?! Təhsil sisteminin deqradasiyasının əsas səbəblərini göstərən bu mətnlər və videolar ünvanına çatacaqmı?"

**Daha sonra 5 istiqamət üzrə RF təhsil sisteminin problemləri xarakterizə edilir. Bu istiqamətlərin qısa xülasəsi belədir:**

*1. Rəqəmsallaşma ideyalarının səmərəsiz tətbiqi.*

*2. Məktəb fəaliyyətinin bütün sahələrində formalizmin yüksək həddi (məktəb müəllimləri müxtəlif formatlı hesabatlarla həddən artıq yüklənir. Hesabat dərsdən daha vacib hesab edilir. Yeni mövzunu izah etməyə vaxt olmasa da, hesabat verməyə vaxt tapın. Hesabata məmurun ehtiyacı var, amma uşaqlar hələ gözləyər və s.).*

*3. Müəllim çatışmazlığı (aşağı əməkhaqqı, ağır iş yükü, attestasiyanın alçaldıcı forması, qeyri-adekvat valideyn tələblərinə qarşı həssaslıq, ayrı-ayrı şagirdlərin kobudluğuna və həyasızlığına qarşı gücsüzlük).*

*Kifayət qədər müəllim və mütəxəssislərin azlığı səbəbindən uyğunlaşdırılmış proqramlar və ümumi təhsil proqramları üzrə uşaqlara eyni vaxtda dərs verə bilməyəcək inklüzivlik təhsil. Fiziki və əqli problemləri olan, sağlamlıq imkanları məhdud uşaqlar izdihamlı siniflərdə (30-40 şagird) birgə oxuyurlar, burada rus dilini bilməyən miqrant uşaqları da otura bilərlər. Burada adi uşaqlara qarşı humanist münasibət necə yaradılsın? Faktiki olaraq sıfıra meyilli olanda təhsilin hansı keyfiyyətindən danışmaq olar?!*

4. Müxtəlif ictimai strukturlardan və bürokratik idarələrdən əhəmiyyətsiz fəaliyyətlər tələb edilməsi (yalnız altı ay ərzində müxtəlif imlalar: coğrafi, etnoqrafik, ekoloji, RF Konstitusiyasını bilmək, maliyyə savadlılığı, 2-ci Dünya müharibəsi hadisələri və tarixləri və s.). Onlarla bağlı məktəblərdən hesabat tələb olunur. Hər cür cari hadisələr, tədbirlər.

*5. Müəllimlərin attestasiyası. Müəllim diplomunun heç bir dəyəri qalmayıb, çox vaxt attestatların, transkriptlərin, cədvəllərin, diplomların, sertifikatların və təkmilləşdirmə kurslarının dəyəri daha çoxdur, əksisi var, bal əlavə edirlər.*

Təhsil sistemində burada qeyd edilənlərdən də çox problemlər var. Müəllimlər, valideynlər bu problemləri bilir və görürlər."

RF-nin təhsilində olan problemlərin çoxu elə bizim təhsil sistemimizdə də mövcuddur. Bu problemləri eşitməyimiz, bu haqda düşünməyimiz islahatların istiqamətini müəyyən etmək üçün faydalı ola, bu tövsiyələr bizim ölkəmizdə də təhsilin inkişafına yardım edə bilər.

**İlkin olaraq təhsil siyasəti istiqamətində bu işlər görülməlidir:**

*1. Ölkənin təhsil sisteminin səviyyələr üzrə monitorinqi;*

*2. Ölkənin təhsil siyasətinin monitorinqi;*

*3. Təhsil infrastrukturunun monitorinqi;*

*4. Təhsilin rəqəmsallaşdırılması vəziyyətinin monitorinqi;*

*5. Təhsil islahatları və onun elmi təminat sisteminin səmərəliliyi, proseslərin kadr təminatının auditi və s.*

Eyni ilə də elm istiqamətində, elm-təhsil, elm-innovasiya, innovativ fəaliyyət, rəqəmsallaşma və s. məsələlərin monitorinqi aparılmalıdır.

Əslində, bütün bu kimi təşəbbüslər nazirliyin və ATM-in tərkibində olan, təhsil tədqiqatları aparan qurumlar tərəfindən hazırlanmalıdır, amma bu qurumların fəaliyyəti son illər hiss edilmir. Təhsil yönümlü bir neçə yeni ETİ və ya tədqiqat mərkəzləri, ən azı ATM nəzdində bu təyinatlı yeni qurumlar yaradılmalıdır.

Keçən il eşitdik ki, ETN-in nəzndə "Təhsilin proqnozlaşdırılması problemləri" adlı elmi tədqiqat laboratoriyası varmış. 10 ildir ki, fəaliyyətdədir. Amma bu haqda heç yerdə heç bir məlumat tapmaq mümkün deyil. Bu kimi problemlərin araşdırılması və proqnozlaşdırılması bu "məxfi" laboratoriya"ların tədqiqat obyekti olmalıdır.

Yeni eraya keçiddə əsas yük təhsil sisteminin üzərinə düşür.

30 il ərzində heç cür həll edilməyən problemlər az vaxtda həll edilməlidir. Əks halda səmərəsiz təhsillə "yeni era"ya keçmək istəsək də, hələ çox illər yerimizdə sayacağıq.

***dos. İlham Əhmədov***

# Səngəçal terminalının elektrikləşdirilməsi üçün işlərə başlanılır



"AzərEnerji" və bp Səngəçal terminalının operatoru kimi Qarşılıqlı Anlaşma Memorandumu (QAM) imzalayıblar. Sənədə əsasən, tərəflər Səngəçal terminalının elektrikləşdirilməsini nəzərdə tutan bir layihə üçün texniki həll hazırlamaq məqsədilə birlikdə işləyəcəklər.

Yeni imzalanmış sənədə əsasən, hər iki tərəf "Səngəçal terminalının elektrikləşdirilməsi layihəsi" (STEL) üzrə ümumi iş həcminin müəyyənləşdirilməsi və bu həcmin "AzərEnerji" ilə Səngəçal terminalının operatoru arasında bölüşdürülməsi istiqamətində əməkdaşlıq edəcək.

STEL layihəsi uğurla həyata keçərsə, dünya səviyyəli obyekt olan Səngəçal terminalını enerji ilə təmin etmək üçün istifadə olunan yanacaq qazının yandırılması dayandırılacaq və terminal Azərbaycan dövlət enerjisistemindən enerji ilə təchiz olunacaq. "Səngəçal terminalının elektrikləşdirilməsi layihəsi" (STEL) adlanan bu layihə həyata keçirildikdən sonra dünya səviyyəli obyekt olan Səngəçal terminalının elektrik enerjisi təchizatı bp şirkəti tərəfindən Cəbrayıl rayonu ərazisində tikiləcək 240 MVt gücündə "Şəfəq" Günəş Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin Azərbaycan dövlət enerjisistemi əraziyə ötürülməsilə vasitəsilə təchiz olunacaq. "Şəfəq" Günəş Elektrik Stansiyasında istehsal olunan enerji Səngəçal Terminalının təchizatı üçün çatışmadıqda terminalın elektrik enerji təchizatı "Azərenerji" ASC tərəfindən təmin olunacaqdır.

# Azərbaycanda şüşə taraların istehsalı zavodu tikiləcək

"Azərbaycan İnvestisiya Şirkəti" ASC və Türkiyənin "Gürok Group" şirkətlər qrupu arasında ölkəmizdə və xaricdə qida və içki istehsalçılarının tələbatını qarşılamaq məqsədilə Azərbaycanda şüşə taraların istehsalı zavodunun tikilməsi imkanlarının araşdırılmasına dair Anlaşma Memorandumu imzalanıb".



Bunu iqtisadiyyat naziri Mikayıl Cabbarov "X" sosial şəbəkəsindəki səhifəsində qeyd edib.

"Dünyanın 5-ci böyük şüşə məmulatları istehsalçısı olan "Gürok Group" şüşə tara, kirəmit, sənaye avadanlığı istehsalı, inşaat və turizm kimi müxtəlif sahələrdə fəaliyyət göstərir", - nazir qeyd edib.

Azərbaycan İnvestisiya Şirkəti ASC (AİŞ) Prezidentin müvafiq Sərəncamı ilə 2006-cı ildə yaradılıb. AİŞ-nin bütün payları Azərbaycan dövlətinə məxsusdur. Şirkət Müşahidə Şurası tərəfindən idarə edilir. AİŞ-nin məqsədləri ölkə iqtisadiyyatının inkişafına töhfə vermək, sahibkarlığın inkişafına təkan vermək vəAzərbaycan Respublikasına xarici investorları cəlb etməkdən ibarətdir.

## «STATUS SIĞORTA BROKERİ» MMC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

| Gəlirlər | Məbləğ AZN ilə |
|---|---|
| **Əsas əməliyyat gəliri:** | 4.356,09 |
| birbaşa sığorta üzrə sığorta haqları | **4.356,09** |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| **İnvestisiya gəlirləri üzrə** | |
| **Subroqasiya gəlirləri** | |
| **Sair gəlirlər** | **30.744,76** |
| **CƏMİ GƏLİRLƏR** | **35.100,85** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | |
| **İşlərin aparılması xərcləri** | 17.656,51 |
| **Sair xərclər** | |
| **CƏMİ XƏRCLƏR** | **17.656,51** |
| **Maliyyə mənfəəti (zərəri)** | 17.444,34 |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | 17.444,34 |
| **Mənfəət vergisi** | |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | 17.444,34 |

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Qeyri-maddi aktivlər** | 11.698,96 | 10.646,05 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | 30.254,62 | 35.216,58 |
| ***Cəmi uzunmüddətli aktivlər*** | 41.953,58 | 45.862,63 |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | 7.651,13 | 699,79 |
| birbaşa sığorta üzrə | 6.635,45 | 111,37 |
| **təkrarsığorta əməliyyatları üzrə:** | | |
| büdcə üzrə | 1.015,68 | 588,42 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | 7.838,85 | 28.325,48 |
| kassa | 0,00 | 0,00 |
| hesablaşma hesabı | 7.838,85 | 28.325,48 |
| **Sair aktivlər** | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | 15.489,98 | 29.025,27 |
| **CƏMİ AKTİVLƏR** | **57.443,56** | **74.887,90** |

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | Hesabat dövrünün sonuna | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 10,00 | 10,00 |
| **Emissiya gəliri** | 0,00 | 0,00 |
| **Geri alınmış kapital (səhmlər)** | 0,00 | 0,00 |
| **Kapital ehtiyatları:** | 0,00 | 0,00 |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | 0,00 | 0,00 |
| digər kapital ehtiyatları | 0,00 | 0,00 |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | -66.002,44 | -48.558,10 |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 46.767,61 | 17.444,34 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | 0,00 | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | -112.770,05 | -66.002,44 |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **-65.992,44** | **-48.548,10** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | | |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | 0,00 | 0,00 |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **123.436,00** | **123.436,00** |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | 123.436,00 | 123.436,00 |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Kreditor borcları:** | 0,00 | 0,00 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | 0,00 | 0,00 |
| **Sair öhdəliklər** | 0,00 | 0,00 |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | 0,00 | 0,00 |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **123.436,00** | **123.436,00** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **57.443,56** | **74.887,90** |

*Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir. Xocalı faciəsi - Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır - vəhşiliyin görünməmiş təzahürüdür.*

*Heydər ƏLİYEV*

# XX əsrin faciəsi: XOCALI SOYQIRIMI

Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli səhifələrdən biri kimi daxil olmuşdur. Azərbaycanın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımının on illiyi münasibətilə Azərbaycan xalqına müraciətinə qeyd etmişdir: ***"Bu amansız və qəddar soyqırımı aktı insanlıq tarixinə ən qorxulu kütləvi terror aktlarından biri kimi daxil oldu".***

Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırımı siyasətinə məruz qalmışdır. Azərbaycan xalqı tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayiət olunmuşdur.

XX əsrin faciəsi olan Xocalı soyqırımı aqressiv və cinayətkar erməni siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu faciə təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Xocalı soyqırımı əsrin Xatın, Xirosima, Naqasaki və Sonqmi kimi dəhşətli faciələri ilə bir sırada dayanır.

1992-ci il fevralın 26-da Ermənistan hərbi birləşmələri 7 min əhalisi olan Xocalı şəhərində genosid aktı həyata keçirdi. Ermənistan hərbi birləşmələrinin şəhərə hücumu zamanı burada yalnız 3 minə yaxın insan qalmışdı. Çünki mühasirədə qaldığı 4 aydan artıq zaman ərzində blokadada olduğu üçün əhalinin xeyli hissəsi şəhərdən çıxmaq məcburiyyətində olmuşdu. Xocalı soyqırımı zamanı 613 nəfər ödürüldü, 1000 nəfər müxtəlif yaşlı dinc sakin aldığı güllə yarasından əlil oldu. 106 nəfər qadın, 63 azyaşlı uşaq, 70 qoca öldürüldü.

8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 nəfər valideyinlərindən birini itirdi. Faciə baş verən gecə 1275 nəfər dinc sakin girov götürüldü, onların 150-sinin taleyi indi də məlum deyil.

Bütün bunlar erməni hərbçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilmişdir.

Xocalı soyqırımının xüsusi amansızlıqla törədilməsi rus, gürcü, ingilis, fransız, alman, amerikalı və digər ölkələrin vətəndaşı olan jurnalist və publisistləri dəhşətə gətirmişdir. Dünyada qəbul olunmuş beynəlxalq konvensiyalar, ümumbəşəri qanunlar Xocalı faciəsi kimi soyqırımları pisləyir, yolverilməz olduğunu bildirirlər.

Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistan Respublikasının Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına əsl soyqırımı hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər.

Xocalı faciəsinin təşkilatçıları və icraçıları layiq olduqları cəzanı almalıdırlar. Heç bir cinayət cəzasız qalmamalıdır. XX əsr soyqırımı və etnik təmizləmənin tarixini yazmış çoxlu sayda qanlı səhifələrin şahidi olmuşdur. Xocalı faciəsi bunların ən dəhşətlilərindən biridir. Bu dəhşətli cinayətdə əli olan hər bir kəs öz vicdanı qarşısında məsuliyyət daşıyır və onlar tarix məhkəməsi qarşısında cavab verəcəklər.

***Bu faciədən 32 il sonra qəhrəman Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə bu torpaqlardan işğalçıları təmizlədi və Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi. Xocalı qurbanlarının əbəs yerə tökülən qanı yerdə qalmadı. İndi Xocalı Qarabağımızın işğaldan azad olunan digər əraziləri kimi azaddır və əsl abadlıq, quruculuq meydanına çevrilib, öz sakinlərinə qucaq açmağa hazırlaşır.***






# Xocalı 32 il sonra



***2023-cü il sentyabrın 19-20-də Azərbaycan Ordusunun Qarabağda keçirdiyi lokal xarakterli antiterror tədbirləri nəticəsində Xocalı şəhəri separatçılardan təmizləndi.***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaltdı.

Bu şəhərdə Azərbaycan Bayrağının dalğalanması Xocalı faciəsi qurbanlarının qanının yerdə qalmadığını bir daha nümayiş etdirir.

* * * *

***2023-cü il dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocavənd və Xocalı rayonlarına səfər ediblər.***



Dövlətimizin başçısı və birinci xanım Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində, Şıx Dursun kəndində "Çinar müqəddəs yer" abidə kompleksində və Xocalı rayonunun Şuşakənd kəndində olublar.

İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı rayonunun Şuşakənd kəndinin ərazisinə baxış keçiriblər.

İlham Əliyev Xocalı rayonunun Dağdağan, Naxçıvanlı, Pircamal, Xanabad, Pirlər, Pircamal kəndlərində olmuş, dövlətimizin başçısı kəndin ərazisinə baxış keçirmişdir.

Pircamal kəndi dağətəyi ərazidə yerləşir. Kəndin adı keçmişdə burada mövcud olmuş Pircamal piri ilə bağlıdır. Tarixi mənbələrə görə, bu yaşayış məntəqəsini qədim Beyləqandan köçüb gəlmiş ailələr salıblar.

Kəndlər 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib. Azərbaycan Ordusunun Qarabağda keçirdiyi antiterror tədbirləri nəticəsində bu kəndlər separatçılardan təmizlənmişdir.

* * * *

***Bu gün Azərbaycanın işğaldan azad olunmuş bütün əraziləri kimi, Xocalı şəhəri də böyük tikinti meydançasını xatırladır. Bir zamanlar yurdlarından didərgin düşən Xocalı sakinlərinin bu il doğma şəhərlərinə qayıtmaları üçün geniş bərpa-quruculuq işləri həyata keçirilir.***

"Bakı Abadlıq Xidməti" MMC-nin memarı Elnur Abdullayev bildirib ki, hazırda Xocalı şəhərinin ərazisində 283 fərdi evdə əsaslı bərpa-quruculuq işləri görülür. Fərdi evlərlə yanaşı, şəhərin infrastrukturu da yenidən qurulur. Artıq rabitə, elektrik, içməli su, kanalizasiya və digər daşıyıcı xətlərin çəkilişi yekunlaşıb, ev birləşmələri işi aparılır.

Şəhər ərazisinin məişət tullantılarından və yabanı bitkilərdən təmizlənməsi, abadlaşdırma və yaşıllaşdırma prosesi də davam edir.

Bakı Abadlıq Xidmətinin məlumatında bildirilir ki, hazırda əsas işlər Xocalının mərkəzindən keçən magistral yolun ətrafında gedir. Əsas yol, ətrafında salınmış yaşıllıqlarla birgə 14 metrə qədər genişlənəcək. Bundan başqa, 167 hektar ərazidə Qaçqın və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən xüsusi nömrələnmiş 113 ev yenilənir.

Bu bahar Xocalıya 50 ailənin qayıdacağı gözlənilir. Köç prosesi sürətləndikcə, xocalılar yolboyu səliqə ilə düzülmüş 200-ə yaxın müasir, rahat həyət evlərində yaşayacaqlar. Biri 5 mərtəbəli, digərləri 2-3 mərtəbəli 110 mənzillik binalar da tədricən istifadəyə veriləcək. Bundan əlavə, 18 hektar ərazidə "fin evləri" adlanan 92 kottecin təmiri bitmək üzrədir.

***Eyni zamanda, tikinti ilə paralel olaraq müasir şəhər kimi dirçələcək Xocalıda böyük abadlıq işləri görülür - ağaclar budanır, yaşıllıqlar salınır.***

Bakı Abadlıq Xidmətinin landşaft memarı Əhməd Erənin sözlərinə görə, Xocalı da çaykənarı, eynən Laçında, Həkəri ətrafında salınmış bulvar kimi gəzinti, istirahət yerinə çevriləcək. İlk sakinlərin köçməsi ilə şəhərdə iaşə obyektləri fəaliyyətə başlayacaq, müəssisələrin işi bərpa ediləcək. Artıq indidən yerli sakinlər quruculuq prosesinə cəlb ediliblər.



*Xocalı Hava Limanı*

# «A-QROUP SIĞORTA ŞİRKƏTİ» ASC-nin 31 dekabr 2023-cü il tarixinə BALANS HESABATI

*manatla*

| A K T İ V L Ə R | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 2 558 386,79 | 2432108,24 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 243 569,11 | 230633,65 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | | |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **2 801 955,90** | **2662741,89** |
| **II. QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | **64 658,64** | **57338,67** |
| **Debitor borcları:** | **4 873 879,66** | **3478745,68** |
| birbaşa sığorta üzrə | 3 234 254,79 | 2000102,84 |
| **təkrarsığorta əməliyyatları üzrə:** | | **313572,25** |
| - təkrarsığortaçı üzrə | | 313572,25 |
| - təkrarsığortalı üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | 1 150 359,98 | 687138,64 |
| iddia tələbləri üzrə | 37 513,74 | 67629,53 |
| işçi heyəti üzrə | 14 647,00 | 2000 |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | 437 104,15 | 408302,42 |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **13 268 001,56** | **12029249,37** |
| kassa | 884,54 | 943,11 |
| hesablaşma hesabı | 4 927 587,39 | 4089124,49 |
| valyuta hesabı | 1 110 214,31 | 1270690,4 |
| depozit hesablar | 6 799 999,84 | 6250000 |
| sair pul vəsaitləri | 429 315,48 | 418491,37 |
| **Qısamüddətli maliyyə aktivləri:** | **6081646,47** | **6931564,16** |
| dövlət qiymətli kağızları | 6081646,47 | 6931564,16 |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **2 028 254,67** | **1863974,31** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | 2 028 254,67 | 1863974,31 |
| **Sair qısamüddətli aktivlər:** | | |
| gələcək hesabat dövrlərinin xərcləri | | |
| verilmiş avanslar | | |
| təhtəl hesablar | | |
| **Sair aktivlər** | **83 110,81** | **102923,97** |
| ***Cəmi qısamüddətli aktivlər*** | **26 399 551,81** | **24463796,16** |
| **CƏMİ AKTİVLƏR** | **29 201 507,71** | **27126538,05** |

| K A P İ T A L V Ə Ö H D Ə L İ K L Ə R | İlin əvvəlinə | |
|---|---|---|
| **I . KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 10 005 250,00 | 10005250 |
| **Emissiya gəliri** | 1401226,48 | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | | **1401226,48** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | 1401226,48 |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **57 190,26** | **698 897,05** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 57 190,26 | 698897,05 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | |
| Elan edilmiş dividendlər | | |
| ***Cəmi kapital*** | **11 463 666,74** | **12 105 373,53** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **16 766 052,84** | **14394386,68** |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | 16 766 052,84 | 14 394 386,68 |
| **Qarşısıalınma tədbirləri fondu** | **63 719,11** | **45665,64** |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | **45 555,50** | **0,00** |
| əməyin ödənilməsi üzrə | 2,94 | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | 45 552,56 | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | | |
| **Sair uzunmüddətli öhdəliklər:** | | |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **360 839,70** | |
| təkrarsığortaçı üzrə | 360 839,70 | |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | **449,24** | **449,24** |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **17 236 616,39** | **14 440 501,56** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **501 224,58** | **580 266,52** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 501 224,58 | 580 266,52 |
| **Sair qısamüddətli öhdəliklər:** | | **396,44** |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | 396,44 |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **501 224,58** | **580 662,96** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **17 737 840,97** | **15 021 164,52** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **29 201 507,71** | **27 126 538,05** |

| Gəlirlər | Məbləğ |
|---|---|
| Əsas əməliyyat gəliri: | 22051515,32 |
| birbaşa sığorta üzrə sığorta haqları | 21124520,22 |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | 765595,82 |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | 161399,28 |
| Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi) | 2207385,797 |
| İnvestisiya gəlirləri üzrə | 549460,99 |
| Subroqasiya gəlirləri | 233800,35 |
| Sair gəlirlər | 239471,77 |
| **CƏMİ GƏLİRLƏR** | **25281634,23** |
| Xərclər | |
| Əsas əməliyyat xərcləri: | 19141492,32 |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | 15335783,06 |
| qaytarılan sığorta haqları üzrə | 731300,87 |
| tənzimləmə xərcləri | 4210 |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | 2343953,81 |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | 25724,53 |
| sığorta fəaliyyəti üzrə sair xərclər | 700520,05 |
| İşlərin aparılması xərcləri | 5225411,71 |
| Sair xərclər | 41108,89 |
| **CƏMİ XƏRCLƏR** | **24408012,92** |
| **Maliyyə mənfəəti (zərəri)** | **873621,3066** |
| **Mənfəətin nizamnamə kapitalına yönəldilən hissəsi** | |
| **Vergiqoyulmadan əvvəl mənfəət (zərər)** | **873621,3066** |
| **Mənfəət vergisi** | **174724,26** |
| **Hesabat dövründə xalis mənfəət (zərər)** | **698897,0466** |

CASPIAN CONSULTING & PARTNERS

Zərifə Əliyeva küçəsi 93,
BEGOC Biznes Mərkəzi,6-cı mərtəbə
AZ1000 Bakı, Azərbaycan.
tel: +99412 505-58-47
+99412 505-58-48
mob: +99450 225-79-15
e-mail: office@cc.baku.az
veb səhifə: www.caspian-consulting.com

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

**«A-QROUP SIĞORTA ŞİRKƏTİ» ASC-nin**
***Təsisçisinə və Rəhbərliyinə***

**Rəy sDFMiHmMQx**

Biz **«A-QROUP SIĞORTA ŞİRKƏTİ» ASC**-nin 31 dekabr 2023-cü il tarixinə əhəmiyyətli uçot siyasətinin və digər izahedici qeydlərin qısa xülassəsindən ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.
Hesab edirik ki, Cəmiyyətin qoşma maliyyə hesabatları bütün əhəmiyyətli aspektlərdə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq hazırlanmışdır.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının "Etika Məcəlləsinin" (IESBA Məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu tələblərə, eləcə də IESBA məcəlləsinin tələblərinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə cari dövrün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmışdır və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Azərbaycan Respublikasının qanunvericiliyinə və MHBS-ə uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.
Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativin olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Cəmiyyətin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz tətib edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlayır. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Dələduzluq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamama riski səhvlər nəticəsindəkindən daha yüksəkdir, çünki dələduzluq sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər.
- Cəmiyyətin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şərtlər şərçivəsində uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük.
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk.
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə ediməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığında dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Cəmiyyətin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

"Caspian Consulting and Partners" MMC

Direktor: Elnurə Abdinova
Auditor: Adışirin Ağa-zadə

Tarix: 19.02.2024

Azərbaycan Respublikası • Məhdud Məsuliyyətli Cəmiyyəti • Caspian Consulting and Partners • Limited Liability Company • Azerbaijan Republic

# Maliyyələşdirmə COP29-un əsas mövzusu olacaq

Bu barədə COP29-un Azərbaycan üzrə baş sözçüsü Yalçın Rəfiyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının (COP) 28-ci və 29-cu sessiyalarına həsr olunmuş yüksək səviyyəli dəyirmi masada deyib.

"COP28 Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) əldə olunmuş konsensus sayəsində mühüm dönüş nöqtəsi oldu. Azərbaycan iqlim üzrə danışıqlarda nəzərəçarpan irəliləyişin əldə olunması üçün hərtərəfli müzakirələr üçün uyğundur. Yalnız inklüziv COP konfransı sayəsində biz irəli addımlamağın düzgün yolunu işləyib hazırlaya bilərik. COP29-da əsas mövzulardan biri maliyyələşdirmə olacaq. Səylərimiz üçün nəticələrin yüngülləşdirilməsi, adaptasiya, itki və zərərin aradan qaldırılması həlledici əhəmiyyət kəsb edəcək. Bu, ölkələr, beynəlxalq təşkilatlar və özəl sektorun birgə səylərini tələb edəcək", - o deyib.

Y.Rəfiyev COP29-da sədrlik çərçivəsində Azərbaycanın Beynəlxalq Enerji Agentliyi (IEA) ilə əməkdaşlığı səbirsizliklə gözlədiyini qeyd edib.

***"Hədəflərimizə nail olmaq üçün yalnız inklüzivlik bizə düzgün yolda irəliləməkdə kömək edə bilər. Əməkdaşlığımız çərçivəsində əsas rəhbər prinsiplərimiz iqlim dəyişikliyinə yönəlmiş, ədalətli və dayanıqlı gələcəyi təmin etmək məqsədilə tərəflərin növbəti Konfransının sədri qismində Braziliya ilə birgə fəaliyyəti nəzərdə tutur. Sədrliyimiz altında COP29 konfransında IEA ilə sıx əməkdaşlığı səbirsizliklə gözləyirik. COP29-da IEA prosesdə həyati vacib rol oynamağa davam edərək öhdəliklərimizin icrasını izləyəcək və tərəfləri həyati əhəmiyyətli tədqiqatlar və siyasətlə dəstəkləyəcəyik"***, - deyə o əlavə edib.

# Azərbaycanın qlobal enerji proseslərindəki rolu Vaşinqtonda müzakirə olunub



Vaşinqtonda Atlantik Şuranın Qlobal Enerji Mərkəzində Azərbaycanın qlobal enerji prosesslərindəki rolu ilə bağlı Azərbaycan-ABŞ müzakirələri keçirilib.

Bu barədə Azərbaycanın energetika naziri Pərviz Şahbazov "X" sosial şəbəkəsində məlumat paylaşıb.

***"Vaşinqtonda Atlantik Şuranın Qlobal Enerji Mərkəzinin baş direktoru Landon Derentzin təşkilatçılığı ilə enerji sahəsində Azərbaycan-ABŞ münasibətləri, enerji təhlükəsizliyi və enerji keçidi ilə bağlı qlobal proseslər müstəvisində ölkəmizin strateji roluna dair maraqlı müzakirələrimiz oldu"***, - deyə nazir yazıb.

# Xəzər dənizinin ilk hibrid enerji qurğulu dalğıc gəmisi tikiləcək




ASCO-nun sifarişi əsasında Bakı Gəmiqayırma Zavodunda tikiləcək Xəzər dənizinin ilk hibrid enerji qurğulu dalğıc gəmisi dənizin 60 metr dərinliyində işləmək imkanına malik olacaq.

Bu barədə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyindən (ASCO) bildirilib.

Qeyd olunub ki, ASCO-nun ekoloji siyasətinə, eləcə də Beynəlxalq Dənizçilik Təşkilatının və bir sıra digər təsnifat cəmiyyətlərinin emissiyaların azaldılması ilə bağlı tələblərinə uyğun inşa ediləcək bu gəmi həm də Prezident İlham Əliyevin elan etdiyi "Yaşıl dünya naminə həmrəylik ili"nə mühüm töhfə verəcək.

# Xocalı şəhəri fasiləsiz içməli su ilə təmin ediləcək

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyindən (ADSEA) tərəfindən Xocalı şəhərinin içməli su təchizatı yaxşılaşdırılır. ADSEA-dan bildirilib ki, Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı yaradılmış Əlaqələndirmə Qərargahından verilən məlumata görə, Xocalı şəhərinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə yeni su mənbəyi yaradılır. Böyük Qayıdış Proqramının icrası nəticəsində şəhərdə məskunlaşmanın və içməli suya tələbatın artacağı nəzərə alınaraq 2 yeni subartezian quyusunun qazılmasına qərar verilib. Yeni subartezian quyuları gələcəkdə Xocalı şəhərini 24 saat fasiləsiz içməli su ilə təmin etməyə imkan verəcək.

# Kredit yarmarkaları təşkil ediləcək

"Azərbaycanda keçirilən Aqrar Biznes Festivalları çərçivəsində kredit yarmarkaları təşkil ediləcək".

Bunu Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiyalar Mərkəzinin direktoru Anar Cəfərov Bakıda keçirilən Beynəlxalq Aqro Biznes Forumunda bildirib. Onun sözlərinə görə, məqsəd fermerlərin kreditə əlçatanlığının təmin edilməsidir: **"Yarmarkalarda bankların regional nümayəndələri də iştirak edəcək. Bununla yanaşı, digər rəsmi şəxslərin iştirakı ilə panel müzakirələr təşkil ediləcək".**

## Kamil Şahbazov – 75

# Ömrün müdriklik zirvəsində



***Azərbaycan iqtisad elminin görkəmli nümayəndələrindən biri – iqtisad elmləri doktoru, professor Kamil Şahbazovun 75 yaşı tamam olur.***

Adətən, insan bu yaşa çatanda, deyirlər ki, ömrünün müdriklik çağını yaşayır. Müdriklik insanın ən ali xüsisiyyətlərindən biridir. Ölkənin elmi ictimaiyyəti arasında tanınan və sayılıb-seçilən Kamil Şahbazovu hər kəs müdrik bir insan kimi sevir, ona ehtiram, hörmət bəsləyir. Kamil müəllimin Azərbaycanın qədim ali təhsil ocaqlarından birində - Azərbaycan Dövlət İqtisad Universitetində tədrisin inkişafında böyük xidmətləri var. Kamil müəllim Azərbaycanın iqtisad elmində öz sözü, imzası, dəst-xətti olan alimlərdəndir.

İqtisad elmləri doktoru, professor Kamil Ağazaman oğlu Şahbazov 14 fevral 1949-cu ildə Bakı şəhərində anadan olmuşdur.

O, 1967-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki UNEC) Əməyin iqtisadiyyatı ixtisası üzrə təhsil almış, 1971-ci ildə həmin universitetin məzunu olmuşdur.

1977-ci ildə iqtisad elmləri namizədi, 1994-cü ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi, 1984-cü ildə dosent, 2007-ci ildə professor elmi adı almışdır. 90-dan yuxarı elmi məqalənin, o cümlədən monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifidir.

Ümumiyyətlə, K.A.Şahbazov respublikamızda gənc iqtisadçı kadrların hazırlanmasında yaxından iştirak edir. O, 20 nəfərdən yuxarı aspiranta rəhbərlik edib. Kamil müəllim böyük həvəs, tələbkarlıq və ciddilik nümayiş etdirərək çalışır ki, hər bir tələbəsi bilikli və savadlı olsun, doğma Vətənə layiq iqtisadçı kimi yetişsin. Bu cəhətdən Kamil müəllim böyük bir vətəndaşlıq hünəri, insansevərlik, vətənpərvərlik nümunəsidir.

***1964-1967-ci illərdə istehsalat yönümlü müəssisələrdə çalışıb. 1971-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda əmək fəaliyyətinə başlayaraq, laborant, müəllim, baş müəllim, dosent vəzifələrində işləyib. 1988-ci ildən "İqtisadiyyatın idarə edilməsi", 1994-cü ildən "Menecment və sahibkarlığın fəaliyyəti", 2004-cü ildən 2022-ci ilin sentyabrına kimi "Menecment" kafedrasının müdiri vəzifəsində çalışıb.***

K.Şahbazov dəfələrlə Moskvanın ixtisasartırma institutlarında stajkeçmə yolu ilə öz ixtisasını artırmışdır və Menecment ixtisası üzrə Biznes Məktəbini bitirmişdir. Dəfələrlə müasir problemlərə həsr olunmuş beynəlxalq elmi konfranslarda və simpoziumlarda iştirak etmiş və maraqlı məruzələrlə çıxış etmişdir.

Ali məktəbdə fəaliyyəti dövründə K.Şahbazov kamil məruzəçi, bacarıqlı müəllim kimi seçilməklə yanaşı, elmi ictimaiyyət tərəfindən müasir problemlərə həsr olunmuş elmi forumlarda orijinal çıxışları ilə fərqlənən prinsipial iqtisadçı-alim kimi tanınır.

*K.A.Şahbazov pedaqoji fəaliyyətlə yanaşı, elmi axtarışlarını da davam etdirmişdir. İşlədiyi illər ərzində onun "Управление адаптацией персонала в условиях формирования рынка труда", "Müasir menecment" (I və II hissələr), "Antiböhranlı idaəetmə", «Управление производственно-профессиональной адаптацией кадров» və s. monoqrafiya, dərs vəsaitləri, elmi məqalələri çap olunmuşdur.*

Azərbaycan Respublikası Prezidentinin 26 sentyabr 2011-ci il tarixli Sərəncamına əsasən Kamil Şahbazova təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar müəllim" fəxri adı verilmişdir. Kamil müəllim gözəl insandır, gözəl alimdir, gözəl mütəxəssisdir.

Onun yüksək insani keyfiyyətləri - səmimiliyi, prinsipiallığı, dürüstlüyü onu digərlərindən fərqləndirir. Kamil müəllim son dərəcə sadə, humanist təbiətli bir alimdir. Gənc iqtisadçılara qarşı çox mehriban və qayğıkeşdir.

***Bizi Kamil müəllimlə səmimi dostluq münasibətləri bağlayır. O, dostluqda etibarlı və sadiqdir. Bu uzun illərin dostluğudur. Əziz dostumuzu, 75 illik yubileyini qeyd edən Kamil Şahbazovu bu münasibətlə təbrik edir, uzun və sağlam ömür, can sağlığı və işlərində müvəffəqiyyətlər arzulayırıq.***

**akademik Ziyad Səmədzadə,**
**professor Məhiş Əhmədov**

## Dr.Aygün Sadıxova "Uşaqlarda allergik xəstəliklərin diaqnostika və müalicəsi" mövzusunda çıxış edəcək

***Mərkəzi Gömrük Hospitalının Pediatriya şöbəsinin pediatr-neonatoloqu Aygün Sadıxova 23 fevral 2024-cü il tarixində saat 14.30-da "Uşaqlarda allergik xəstəliklərin diaqnostika və müalicəsi" mövzusunda növbəti cümə seminarları çərçivəsində çıxış edəcək. Tədbirdə Mərkəzi Gömrük Hospitalının pediatrları, neonatoloqları, təcili yardım həkimləri, pediatriya ixtisası üzrə təhsil alan həkim-rezidentlər və tibb tələbələri iştirak edə bilərlər. Qeydiyyatdan keçən tibb mütəxəssislərinə telefon və ya e-mail vasitəsilə təsdiq məktubu göndəriləcək. Virtual qoşulmaq istəyənlər üçün isə Zoom link göndəriləcəkdir.*** Qeydiyyat üçün keçid: https://ref.az/Np5nrN.




Dr.Aygün Sadıxova Mərkəzi Gömrük Hospitalında yeni doğulmuş uşaqların müayinəsi, uşaqların anadan olduğu dövrdən 17 yaşa kimi olan dövrdə müayinə və müalicəsi, vaksinasiya, uşaqlarda qastroenterologiya, pulmonologiya, allerqologiya, otolarinqologiya ilə bağlı xəstəliklərin stasionar şəraitdə müalicəsi ilə məşğul olur.

Aygün həkim 1994-2001-ci illərdə Azərbaycan Tibb Universitetinin pediatriya fakültəsində təhsil almış, 2001-2002-ci illərdə K.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunda pediatriya ixtisası üzrə internatura keçmişdir. O, əmək fəaliyyətinə 2002-ci ildə başlayaraq 2017-ci ilə qədər dövlət tibb müəssisəsində pediatr-neonatoloq kimi çalışıb. Aygün həkim 2017-ci ildən etibarən Mərkəzi Gömrük Hospitalında pediatr-neonatoloq kimi fəaliyyət göstərir.

Dr.Aygün Sadıxova beynəlxalq konfranslarda, seminarlarda və elmi-praktik konfranslarda iştirak edir. O, 2018-ci ildə Neonatologiya üzrə I Bakı Beynəlxalq Konfransında, "Pediatriyada yeniliklər" mövzusunda VIII Simpoziumda, 2019-cu ildə Neonatologiya üzrə Azərbaycan-Türkiyə II İntensiv təlim kursunda, Neonatologiya üzrə II Bakı Beynəlxalq konqresində, 2022-ci ildə Türkiyənin İzmir şəhərində Ege Universitetinin Reanimasiya və Pediatriya şöbəsində neonatologiya üzrə rotasiya kursunda iştirak edib.

Xatırladaq ki, Mərkəzi Gömrük Hospitalı keyfiyyətli tibb xidmətlərinin göstərilməsi ilə yanaşı, respublikada tibbi kadrların hazırlanması prosesində də aktiv iştirak edir. Tibbin bir çox sahələri üzrə mövcud olan rezidentura proqramları çərçivəsində hospitalda 50-dən çox həkim-rezident çalışır.

## Gürcüstanda yoxsulluq səviyyəsi 15,3 faizə enib

Ötən ilin dördüncü rübündə Gürcüstanda işsizlik səviyyəsi 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,7 faiz azalaraq 15,3 faiz təşkil edib.



Bu barədə Gürcüstanın Milli Statistika Xidməti məlumat yayıb.

Bildirilir ki, 2023-cü ilin son üç ayında muzdla işləyənlərin sayı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 74,3 min nəfər (8,4 faiz) artaraq 958,4 min nəfərə çatıb.

Gürcüstanda kişilər arasında işsizlik nisbəti ənənəvi olaraq qadınlardan daha yüksəkdir. Həmin göstərici qadınlar arasında 0,3 faiz, kişilər arasında isə 1,0 faiz azalaraq müvafiq olaraq 13,5 faiz və 16,8 faiz təşkil edib.

## Yaponiya dünyanın üçüncü ən böyük iqtisadiyyatı titulunu itirdi



2023-cü ildə Yaponiya nominal ÜDM baxımından dünyanın üçüncü ən böyük iqtisadiyyatı yerini Almaniyaya verib və 4-cü yerə düşüb. Bu, son 30 ildən artıqdır ki, ən aşağı səviyyədə olan Yaponiya milli valyutasının zəifliyi ilə bağlıdır.

Yaponiyanın nominal ümumi daxili məhsulu (ÜDM) 2023-cü ilin sonunda dollar ilə ifadədə 4,21 trilyon dollar təşkil edib. Yaponiya Nazirlər Kabineti Aparatının hesabatına görə, dünyanın üçüncü ən böyük iqtisadiyyatı yerini Almaniyaya (4,46 trilyon dollar) uduzub.

2022-ci ildə Yaponiyanın dollar ifadəsində nominal ÜDM-i 4,26 trilyon dollar təşkil etmişdi. Eyni zamanda, 2023-cü il üçün yen ifadəsində bu rəqəm 1,2% artıb. Bu tendensiya son 30 ildən artıqdır ki, ən aşağı səviyyədə olan Yaponiyanın milli valyutasının zəifliyi ilə bağlıdır. Ölkənin real ÜDM-i 2023-cü ildə 1,9% artıb.




**Azəri Light və Brent markalı neftin bir barelinin 15 – 21 fevral tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

## E L A N

**A-QROUP sığorta şirkəti yeni ünvanda. 29 yanvar 2024-cü il tarixindən etibarən A-QROUP öz müştərilərini Azadlıq prospekti 3 ünvanında yerləşən yeni ofisində qarşılayır. Şirkətin əlaqə nömrələri dəyişilməyib: *0909 / (012) 377 09 09.**

**A-QROUP 28 il ərzində onlara güvənən və təkrar bərabərlikdən məmnun olan müştərilərinə təşəkkür edir.**
**"Sizə minnətdar olaraq, sizin üçün inkişaf edirik!" – sizin A-QROUP sığorta şirkətiniz.**

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500